


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

27 sentyabr 2025-ci il
Şənbə

1933-cü ildən çıxır
№ 37 (3749)


# Qlobal tribunada qalib lider

**BMT kürsüsü. Prezident İlham Əliyev çıxış edir. Qələbədən, sülhdən danışır Müzəffər Ali Baş Komandan. Dinləyir: həqiqətləri 30 il qulaq ardına vuranlar. Nəticə: Azərbaycan xalqı xoşbəxtdir və qalibdir.**



## BMT kürsüsündə Azərbaycanın reallıqları səsləndirildi

Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edən Azərbaycan lideri bir sıra regional və beynəlxalq mövzulara toxunub.

Dövlətimizin başçısı çıxışına bu sözlərlə başlayıb: "Uzun illər ərzində mən bu kürsüdən Azərbaycana qarşı törədilmiş təcavüz, işğal və ədalətsizlik faciələri barədə danışmışam. Bu gün isə qələbəyə və sülhə aparan uzun yolumuzdan, Azərbaycan tarixində yeni dövrdən, Vətən müharibəsi ilə işğala necə son qoyulduğundan, sülhü siyasi vasitələrlə necə təmin etməyimizdən danışacağam".

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizinin Ermənistanın hərbi işğalı altında qaldığını xatırladan Prezident ATƏT-in Minsk qrupunun səmərəsiz fəaliyyətindən bəhs edib. 2020-ci ildə Azərbaycanın BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq, özünümüdafiə hüququndan istifadə etməyə məcbur qaldığını, 44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimizin işğal altındakı əraziləri azad etdiyini, nəhayət, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdiyini söyləyən dövlətimizin başçısı Azərbaycanın Zəfər müharibəsindən dərhal sonra ərazi bütövlüyünün və suverenliyin qarşılıqlı şəkildə tanınması əsasında Ermənistanla münasibətlərdə yeni səhifə açmağa hazır olduğunu bəyan edib.

> *"Gəlin, birlikdə qanunun aliliyinə hörmət edildiyi dünya quraq"*

Bu il avqustun 8-də Vaşinqtonda, Ağ Evdə ABŞ, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin sülh müqaviləsinin mətnini parafladığını deyən Prezident İlham Əliyev Vaşinqton Sammitinin Azərbaycan-ABŞ münasibətlərində də yeni mərhələnin başlanmasına işarə etdiyini qeyd edib.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan Qələbədən dərhal sonra azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa proqramına start verdi. Yerlə-yeksan edilmiş kənd və şəhərlər yenidən qurulur. "Böyük Qayıdış" Proqramı çərçivəsində artıq 50 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, işləyir və təhsil alır. Hazırda Azərbaycanın qarşısında duran ən ağır humanitar problemlərdən birinin Ermənistanın işğalı dövründə yerləşdirilmiş minaların yaratdığı təhlükə olduğunu vurğulayan Prezident itkin düşmüş dörd minə yaxın azərbaycanlının faciəli taleyinə diqqət çəkib, Azərbaycanın qlobal problemlərin həllində aktiv rol oynadığını, iqlim fəaliyyəti, yaşıl keçid və maliyyəyə ədalətli çıxış məsələlərində mühüm nəticələr əldə olunmuş COP29-a ev sahibliyi etdiyini, eləcə də bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqlədiyini bildirib.

Şərq-Qərb və Şimal-Cənub dəhlizləri kimi bağlantı layihələrinin ölkəmizdən keçdiyinə diqqət çəkən Prezident İlham Əliyev Azərbaycanın beynəlxalq nəqliyyat qovşaqlarından birinə çevrilməsindən, ölkəmizin iqtisadi dayanıqlılığından, əlverişli investisiya mühitindən də bəhs edib.

Dövlətimizi başçısı çıxışını bu sözlərlə tamamlayıb: "Son illərdə əldə etdiyimiz nailiyyətlər yalnız Azərbaycanın qələbəsi və uğuru deyil. Bu, həm də beynəlxalq hüququn sonda mütləq üstünlük təşkil etməsinin sübutudur.

Bizim baxışlarımız aydındır. Bunlar beynəlxalq hüquqa əsaslanan sülh və inkişaf, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı hörmət və əməkdaşlıqdır.

Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq".

# Səmimi dialoq

## Liderlərin söhbəti diqqət çəkib

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-ü Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər.

Qəbul ABŞ Prezidenti Donald Tramp və birinci xanım Melaniya Trampın adından təşkil olunub. Tədbirdə ABŞ və Azərbaycan liderləri arasında səmimi dialoq olub. ABŞ Prezidenti dövlətimizin başçısı İlham Əliyevlə söhbətində vurğulayıb ki, mən sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

# Uğurlu əməkdaşlıq

## Prezident komissarı qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kosu qəbul edib. Görüşdə enerji, nəqliyyat, Orta Dəhliz ilə Mərkəzi Asiyadan Azərbaycana gələn yüklər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezidentlər görüşüb

## Fikir mübadiləsi aparıblar

Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ruanda Respublikasının Prezidenti Pol Kaqame ilə geniş tərkibdə görüşü olub. Dövlət başçıları Azərbaycan ilə Ruanda arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu qeyd ediblər, ölkələrimizin iqtisadi-ticari, mədəni, humanitar sahələrdə də əməkdaşlığının buna uyğun surətdə inkişaf etdirilməsinin zəruriliyini vurğulayıblar.

# Səmərəli müzakirə

## Bölgədə sülh mövcuddur

Sentyabrın 25-də BMT-nin mənzil-qərargahında Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş ilə görüşüb. Söhbət zamanı iki ölkə arasındakı münasibətlərin və regiondakı vəziyyətin tamamilə dəyişdiyini deyən dövlətimizin başçısı bildirib ki, Azərbaycan və Ermənistan müstəqilliklərini əldə edəndən bəri regionda sülh olmayıb. Hazırda isə bölgədə sülh mövcuddur. Prezident bunun mühüm və tarixi önəm kəsb etdiyini diqqətə çatdırıb.

# Fərman və sərəncamlar

*Prezident İlham Əliyev sentyabrın 19-da avtomobil nəqliyyatı ilə müntəzəm sərnişin daşınması sahəsinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb.*

*Naxçıvan şəhərində görkəmli memar Əcəmi Naxçıvaninin abidəsi ucaldılacaq. Bununla bağlı Prezident İlham Əliyev sentyabrın 18-də Sərəncam imzalayıb.*

*Azərbaycan neft sənayesinin inkişafında xüsusi xidmətlərinə görə BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Counz Robert Qəri "Şöhrət" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı sentyabrın 18-də Sərəncam imzalayıb.*

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı" təsdiq edilib. Bununla bağlı Prezident İlham Əliyev sentyabrın 17-də Sərəncam imzalayıb.

# DİN rəhbərliyi Zəfər parkını ziyarət edib

## Şəhidlərimizin əziz xatirəsi ehtiramla yad olunub

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin şəxsi heyəti Zəfər parkına gələrək 44 günlük Vətən müharibəsində respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalan qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad ediblər, xatirə abidəsinin önünə gül dəstələri qoyublar.






Nazir əməliyyat müşavirəsi keçirdi........2

Vətəndaş bilməlidir: bilmirsə izah elə...2

Qürurla ötən 5 il....................................3

Yol hipnozu: sürücülərin gizli təhlükəsi.4

# Daxili işlər naziri vətəndaş qəbulu keçirəcək

## Vətəndaşlar polisin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət edə bilərlər

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tərəfindən 2025-ci il oktyabr ayının 1-də Sumqayıt Şəhər Polis İdarəsinin inzibati binasında şəhər sakinlərinin qəbulu keçiriləcək.

Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 30.09.2025-ci il tarixədək Sumqayıt Şəhər Polis İdarəsinə, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.

# Respublika Xəbərləri

### Karantin rejiminin müddəti uzadılıb

Azərbaycanda xüsusi karantin rejiminin müddəti uzadılıb. Baş nazir Əli Əsədov bu barədə müvafiq qərar imzalayıb. Qərarla koronavirus (COVID-19) infeksiyasının törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 yanvar saat 06:00-dək uzadılıb.

### Yenilik: “E-polis” bildiriş göndərir

“E-polis” mobil tətbiqi davamlı olaraq təkmilləşdirilir. Yeni tətbiq edilən “push” bildirişləri sayəsində “E-polis” istifadəçiləri artıq proqrama daxil olmadıqda belə sənədlərinin etibarlılıq müddəti başa çatmazdan əvvəl vaxtında xəbərdar ediləcəklər. Bu bildirişlər şəxsiyyət və sürücülük vəsiqələri, ümumvətəndaş pasportu və nəqliyyat vasitəsinin texniki baxış müddətinin son bitmə tarixi barədə sənədlərə şamil olunur.

### Sosial islahatlar davam edəcək

Bu ilin əvvəlindən icrasına başlanılan sosial islahat paketi 3 milyon insanı əhatə edib və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılıb. Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev belə deyib.

### III MDB Oyunları başlayıb

Azərbaycanın ilk dəfə ev sahibliyi etdiyi III MDB Oyunlarına avqustun 26-da start verilib. İlk yarış günündə stolüstü tennisçilər qüvvələrini sınayıblar. Artıq Azərbaycan III MDB Oyunlarında ilk medalları da təmin edib. 13 ölkədən ümumilikdə 1624 idmançının iştirak etdiyi III MDB Oyunlarının açılış mərasimi sentyabrın 28-də, bağlanış tədbiri isə oktyabrın 8-də Gəncə Şəhər Stadionunda olacaq.

### Zəngəzur dəhlizi gəlir gətirəcək

Zəngəzur dəhlizi Orta Dəhlizin əsas tərkib hissəsinə çevrilir və regionun gələcək inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, dəhlizlə illik yükdaşımanın həcmi 15 milyon tona qədər artacaq.

### Qeyri-neft ixracı dəfələrlə artıb

Azərbaycanın qeyri-neft ixracı son 6 ildə iki dəfə artıb. Verilən məlumata görə, sənaye zonalarında 170-dən çox müəssisə fəaliyyət göstərir, 4 milyard dollardan artıq sərmayə yatırılıb və 10 mindən çox iş yeri yaradılıb. Əvvəllər qeyri-neft ixracımız əsasən kənd təsərrüfatı məhsullarından ibarət idi. İndi isə emal olunmuş kənd təsərrüfatı və sənaye məhsullarının payı daha çoxdur.

### İctimai iaşə dövriyyəsi çoxalıb

Cari ilin yanvar-avqust aylarında Bakıda ictimai iaşə dövriyyəsinin həcmi 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 15,4 faiz artaraq 1 milyard 176 milyon manat olub. Bakı Şəhər Statistika İdarəsindən bildirilib ki, hüquqi şəxslər tərəfindən ictimai iaşə dövriyyəsi 670,4 milyon manat olub.

# Nazir əməliyyat müşavirəsi keçirdi

## III MDB Oyunları diqqət mərkəzindədir

Sentyabrın 22-də Daxili İşlər Nazirliyində ölkəmizdə keçiriləcək III MDB Oyunları müddətində ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında naziryanı əməliyyat müşavirəsi keçirilib.





Müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycanın son illər bir çox nüfuzlu idman yarışlarına ev sahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

“2025-ci ildə Müstəqil Dövlətlər Birliyinin idman paytaxtı” elan edilən Gəncə şəhərində və ölkəmizin digər 6 şəhərində sentyabrın 28-dən oktyabrın 8-dək müddətdə keçiriləcək III MDB Oyunları müddətində gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyi qeyd olunub.

Vilayət Eyvazov ölkəmizin ev sahibliyi edəcək bu əhəmiyyətli idman tədbiri ərəfəsində iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyinin təmin edilməsi, oyunların keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkət etmələri üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.

# Vətəndaş bilməlidir: bilmirsə izah elə

## Bir insanın taleyi davranışlarından asılıdır

**Yolda, məhəllədə, işdə – hər yerdə başqalarının taleyi bir insanın davranışından asılı ola bilər. Pis davranışlar nüfuza, etibara, gələcəyə təsir edir.**

Cəmiyyətin təhlükəsizliyi hər bir fərdin davranışından asılıdır. Qanun pozuntusu yalnız kağız üzərində yazılmış qaydaların pozulması deyil, həm də insanların həyatına, sağlamlığına və gələcəyinə birbaşa təsir göstərən təhlükəli nəticələr doğurur. Əgər vətəndaşla üz-üzə danışırsınızsa, ona sadə, anlaşılan dillə həm qanun, həm də həyatı üçün risklər izah olunmalıdır. “Siz bu əməli törətməklə yalnız qanunu pozmursunuz, həm də özünüzü və başqalarını da təhlükə altına salırsınız. Bu davranışın nəticəsində: azadlığınız məhdudlaşdırıla bilər, çünki əməlinizdə cinayət məsuliyyəti var, cəza alarsınız. Ailəniz zərər görər, sevdikləriniz sizin məsuliyyətsiz hərəkətinizin yükünü daşıyar. Başqalarının həyatı risk altına düşər, bir yalnış addım insanlara zərər verə bilər. Belə əməl sizə nə iş, nə də nüfuz qazandırar.

### Hüquq pozuntularının fəsadları

Qanunsuz hərəkət edən şəxs ilk növbədə öz azadlığını risk altına atır. Cinayət törətmək azadlığın məhdudlaşdırılması, cərimə, həbs kimi ağır nəticələrə gətirib çıxarır. Bu, insanın gələcək planlarını, karyerasını və nüfuzunu məhv edir. Bir anlıq məsuliyyətsizlik illərlə çəkilən əziyyəti puç edə bilər.



### Ailəyə və yaxınlara təsiri

Hər bir insanın arxasında ailəsi, valideynləri, övladları dayanır. Qanunu pozan şəxsin cəza alması ailəsini də sarsıdır. Sevdikləri maddi çətinliklərlə, mənəvi iztirabla üz-üzə qalır. Bu, bəzən uşaqların təhsilinə, ailə münasibətlərinə və bütövlükdə gələcək nəsillərin taleyinə də mənfi təsir edir.

### Cəmiyyət üçün təhlükələr

Qanunsuz əməl təkcə törədən şəxsin deyil, başqalarının da həyatını risk altına salır. Narkotik dövriyyəsi, qanunsuz silah saxlamaq, yol hərəkəti qaydalarını pozmaq və ya digər cinayətlər başqalarının sağlamlığına, təhlükəsizliyinə və əmin-amanlığına ciddi təhdid yaradır. Hər bir vətəndaşın məsuliyyətsizliyi bütöv cəmiyyətin təhlükəsizliyini sarsıdır.

### Sosial nüfuzun itirilməsi

Cinayət törədən şəxs yalnız qanun qarşısında deyil, həm də ictimaiyyət qarşısında nüfuzunu itirir. Etibarsızlıq yaradır, illərlə insanın üzərindən silinmir. Həyatın bütün sahələrində – işdə, sosial münasibətlərdə, cəmiyyətdə qəbul olunmaqda bu iz özünü göstərir. Hər bir qanunsuz addım uzunmüddətli zərərlərlə nəticələnir: azadlığın məhdudlaşdırılması, ailənin dağılması, başqalarının həyatına təhlükə, şəxsi nüfuzun itməsi. Ona görə də vətəndaş olaraq hər kəs anlamalıdır ki, qanunlara əməl etmək sadəcə qorxu və cəza məsələsi deyil, həm də həyatımızın, ailəmizin və gələcəyimizin təminatıdır.

*Elşad Hacıyev*
*polis polkovnik-leytenantı*

# Peşəkarlıq ictimai rəyi formalaşdırır

## Bu tədbirlərin keçirilməsi xidmətdə dönüş yaradır

Gənc polis əməkdaşlarının mənəvi-psixoloji hazırlığının yüksəldilməsi məqsədilə Nəqliyyatda Baş



Polis İdarəsinin Hava, Dəmir yolu və Su Nəqliyyatında Polis İdarələrində, Qaradağ, Nərimanov Rayon Polis İdarələrində, həmçinin Yasamal və Nərimanov Rayon Mühafizə İdarələrində görüşlər keçirilib.

Görüşlərdə DİN Şəxsi Heyətlə İş İdarəsinin rəis müavini polis polkovniki Anar Alışzadə, İdarənin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nəsirov, baş inspektorlar polis polkovnikləri Laçın Paşayev və Rüstəm Nəsibov ölkəmizin dünyada etibarlı tərəfdaş kimi qəbul olunmasını, qələbəmizlə başa çatan Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra ərazi bütövlüyümüzün, həmçinin suverenliyimizin bərpasını və buna beynəlxalq dəstəyin ifadəsini diqqətə çatdırıblar.

Qeyd olunub ki, siyasi uğurlarımızn təməlində güclü iqtisadiyyat və etibarlı sabitlik durur. Ölkəmizdə sabitliyin bərqərar olunmasında daxili işlər orqanlarının fəaliyyətinin ölkə və DİN rəhbərliyi tərəfindən yüksək qiymətləndirilməsi məsuliyyət hissimizi artırır,- deyən natiqlər tədbirin mövzusuna uyğun olaraq xidmət zamanı vətəndaş-polis münasibətlərini daha da möhkəmləndirən etik-davranış kodeksinin müddəalarına əməl edilməsinin vacibliyini önə çəkiblər. Tədbirdə xüsusən polisin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə mənfi rəyin formalaşmasının başlıca səbəbi olan korrupsiya və digər halların yolverilməzliyi, xidməti konfidensiallığı qorumanın rəhbərlik tərəfindən əsas tələb kimi diqqətdə saxlanıldığı əməkdaşlara izah edilib.

Sonra mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılıb, xidmət apararkən vətəndaş məmnunluğunu şərtləndirən təmkin, peşəkarlıq və yüksək iradə nümayiş etdirmələrinin ümumi işə, qanunçuluğa, sabitliyin daha etibarlı qorunmasına fayda verəcəyi vurğulanıb.

# Qürurla ötən 5 il...

## 27 Sentyabr - Anım Gününün beşinci ildönümünə həsr olunmuş mərasim keçirilib

**Daxili İşlər Nazirliyində 27 Sentyabr – Anım Gününün beşinci ildönümünə həsr olunmuş mərasim keçirilib. Tədbirdə Vətən müharibəsində iştirak etmiş DİN-in hərbi qulluqçuları və polis əməkdaşları iştirak ediblər.**

Əvvəlcə respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən daxili işlər nazirinin müavini polis general-leytenantı İsmət Əliyev Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən silahlı qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının Vətən müharibəsində yüksək peşəkarlıq və qəhrəmanlıq nümunələri göstərdiklərini vurğulayıb.

Nazir müavini bu gün işğaldan azad olunan ərazilərdə ictimai təhlükəsizliyin təmin olunması, Böyük Qayıdışın daha tez reallaşması üçün Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının xidməti vəzifələrini böyük qürur hissi ilə davam etdirdiklərini məmnunluqla vurğulayıb.



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlar Komandanının müavini - Şəxsi Heyət üzrə İdarənin rəisi general-mayor İnqilab Muradov Vətən müharibəsində Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının və polis əməkdaşlarının keçdiyi şərəfli döyüş yolundan danışıb.

Daha sonra çıxış edənlər ölkə başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş hərbi qulluqçularımızın və polis əməkdaşlarının bilik və bacarıqlarını, peşəkarlıqlarını artırmaqla onlara göstərilən bu etimadı doğrultmaq üçün səylərini bundan sonra da əsirgəməyəcəklərini vurğulayıblar.

Tədbirin sonunda Vətən müharibəsində igid oğullarımızın qəhrəmanlıqlarını özündə əks etdirən sənədli film nümayiş olunub.

# Bu, polisin də qələbəsidir

## Dünyaya trekdə sürəti, paytaxtda əmin-amanlığı nümayiş etdirdik

**Bakıda keçirilmiş "Formula-1" üzrə Azərbaycan Qran-prisi uğurla başa çatdı. Əsas yarışda "Red Bull" komandasının pilotu Maks Ferstappen bütün rəqiblərini qabaqlayaraq qələbə qazandı və kuboka sahib oldu. Niderlandlı pilot Bakı trekində ikinci dəfə qalibiyyət sevinci yaşadı. O, 2022-ci ildə də bu uğura imza atmışdı.**

2016-cı ildən etibarən Qran-priyə ev sahibliyi edən Azərbaycan artıq sübut edib ki, belə kütləvi tədbirlər zamanı daxili işlər orqanları ictimai qaydanı və təhlükəsizliyi yüksək səviyyədə təmin edə bilirlər. Bu ilki yarış da istisna olmadı və paytaxtda asayiş tam qorundu. Artıq xeyli təcrübə topladığımız bu yarışlar zamanı paytaxt ərazisində ictimai asayişin təminində daxili işlər orqanları yenə yüksək peşəkarlıq sərgilədi. Sayca doqquzuncu Qran-Priyə ev sahibliyi edən Bakı bununla dünyaya həm də Azərbaycanın asayiş keşikçilərinin gərgin əməyinin nəticəsini nümayiş etdirdi. Başqa sözlə desək, Qran-pridə qalib yenə Ferstappen, sabitlikdə qalib isə həmişəki kimi Azərbaycan polisi oldu.

Aydın məsələdir ki, yarış günlərində ictimai asayişin qorunması və nəqliyyatın sabit idarə olunması prioritet idi. Şəhərin mərkəzi küçələrindən keçən tras tıxac ehtimalını artırsa da, yol polisi əvvəlcədən alternativ marşrutlar hazırlamış, sürücülərə vaxtında xəbərdarlıqlar etmiş və nəqliyyat axınının fasiləsizliyini təmin etmişdi.

Hava limanı, hotellər və yarış məkanları arasında hərəkət edən nəqliyyat vasitələrinin koordinasiyası, ictimai nəqliyyatın xüsusi rejimdə fəaliyyəti və tamaşaçıların rahat gediş-gəlişi yol polisinə həvalə olunmuşdu. Bütün bu tədbirlər uğurla icra edildi və nəticədə şəhər həyatında ciddi pozuntular qeydə alınmadı.

Nüfuzlu avtoidman yarışında polisin xidmət yeri şəhərin böyük bir ərazisini əhatə etdiyinə görə ictimai-asayişi və təhlükəsizliyi təmin etmək üçün daha gərgin səy tələb olunurdu. Bunun üçün xidmətə cəlb edilən polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmək üçün tam hazır vəziyyətə gətirilmişdi.

Ötən nömrəmizdə də qeyd etdiyimiz kimi, polis orqanları üçün belə kütləvi tədbirlər sadəcə idman yarışı deyil, həm də sabitlik, ictimai qaydanın qorunması və beynəlxalq imicin möhkəmləndirilməsi deməkdir. Qətiyyətlə qeyd edə bilərik ki, polisin peşəkar fəaliyyəti sayəsində həm yerli sakinlər, həm də paytaxtın qonaqları bu möhtəşəm tədbirdən zövq ala bildilər.



Azərbaycan bir daha təsdiqlədi ki, irimiqyaslı tədbirləri yüksək səviyyədə təşkil etmək gücündədir. Elə bu potensial sentyabrın 28-dən oktyabrın 8-dək keçiriləcək III MDB Oyunlarına güclü zəmin yaradır. Gəncə və digər 6 şəhərdə keçiriləcək tədbir indiyədək keçirilənlərdən geniş coğrafiyasına görə ciddi fərqlənir, deməli, bu, polisin də fəaliyyət dairəsini birə yeddi artıracaq. Ancaq daxili işlər orqanlarının zəngin təcrübəsi bu oyunların yüksək səviyyədə təminatına əvvəlcədən zəmanət verir. Nazirlikdə MDB Oyunlarına həsr edilən əməliyyat müşavirəsi də hazırlıqların ən yüksək səviyyədə aparıldığını, təhlükəsizlik məsələlərinin diqqət mərkəzində saxlanıldığını təsdiq etmiş oldu.

Bakıda keçirilən "Formula-1" Azərbaycan Qran-prisi onu da nümayiş etdirdi ki, ölkəmiz həm idman, həm də təhlükəsizlik baxımından beynəlxalq tədbirlərin keçirilməsi üçün etibarlı məkandır. Bu, Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş imicini gücləndirir və yalnız idman deyil, mədəniyyət, siyasət və təhlükəsizlik sahələrində qlobal mərkəz kimi tanınmasına şərait yaradır.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# "Diqqət, uşaqlar!"

## BDYPİ məktəblilərlə növbəti görüş keçirdi

"Diqqət, uşaqlar!" aylığı çərçivəsində yol hərəkəti təhlükəsizliyinə dair maarifləndirici tədbirlər davam etdirilir. Növbəti belə görüş paytaxtdakı "Aktual Tədris Mərkəzi"ndə təşkil olunub.

Tədbirdə azyaşlılara yol hərəkəti qaydaları, piyada keçidlərindən düzgün istifadə, nəqliyyat vasitələrinin yaxınlığında ehtiyatlı davranma kimi mövzular əyani və interaktiv formada izah olunub, təhlükəsizlik nişanları, işıqforun tələbləri və yol hərəkətində hər birinin məsuliyyətini aydın göstərən maarifləndirici materiallar təqdim edilib.






Baş Dövlət Yol Polisi İdarəsi bir daha xatırladır ki, uşaqlar arasında yol hərəkəti qaydalarının öyrədilməsi və onların gündəlik həyat tərzinə çevrilməsi gələcəkdə təhlükəsizliyin təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Bu cür görüşlərin mütəmadi olaraq keçirilməsi gələcək nəslin yol hərəkəti qaydalarına məsuliyyətli yanaşmasına, onların daha təhlükəsiz mühitdə böyüməsinə xidmət edir.

# "Uçurumlar qarşısında"

## Kitabda yer alan əsərlər narkomaniya ilə mübarizəyə çağırışdır




Bu günlərdə Azərbaycan Dillər Universitetinin Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzində yazıçı-publisist, Azərbaycan Yazıçılar Birliyinin üzvü, universitetin baş müəllimi Sədaqət Fuadın "Uçurumlar qarşısında" adlı kitabının ilk təqdimat mərasimi keçirilib. Tədbirdə Daxili İşlər, Səhiyyə nazirliklərinin, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Aparatının nümayəndələri, universitet müəllimləri, tələbələri və məzunları iştirak ediblər. Tədbir Vətən torpaqları uğrunda şəhidlik zirvəsinə ucalan oğul və qızlarımızın xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

İştirakçıları salamlayan müəllif yeni tədris ilinin başlanması münasibətilə tələbə və müəllim kollektivini təbrik edib, uğurlar arzulayıb. O, ilk təqdimat mərasimini məhz doğma universitetində tələbələrin əhatəsində keçirməyin onun üçün xüsusi önəm daşıdığını bildirib.

Cəmiyyəti, xüsusən gəncliyi məhvə sürükləyən narkomaniyanın fəsadlarından bəhs edən müəllif onunla mübarizədə fədakarlıq göstərən hüquq-mühafizə orqanlarının fəaliyyətini yüksək qiymətləndirərək, bu işdə hər bir vətəndaşın səfərbər olmasının vacibliyinə diqqət çəkib.

Daha sonra çıxış edən natiqlər müəllifin əsərlərinin ictimai-sosial mövzularda cəmiyyət üçün mühüm mesajlar verdiyini, narkomaniya kimi bəşəri bəlanın ədəbi dillə təqdimatının cəmiyyət üçün daha təsirli və düşündürücü olacağını vurğulayıblar.

# Ailə "biznesi"

## Oğuzda polis əməliyyat keçirdi

Oğuz Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən narkotik vasitələrin satışı və kultivasiyası ilə məşğul olan şəxslərə qarşı əməliyyat keçirilib. Şəki regional qrupumuzdan bildirilib ki, tədbirlərlə bir ailənin 4 üzvü- əvvəllər də ağır cinayətə görə məhkum olunmuş 65 yaşlı Məmmədsaad Məmmədov, oğlu 34 yaşlı Orxan, arvadı 55 yaşlı Gülnaz və gəlini Dilbər Məmmədovalar saxlanılıb. Onların Xaçmaz kəndində yaşadıqları ünvana baxış keçirilərkən 3 kiloqrama yaxın marixuana, 138 ədəd çətənə bitkisi və hissələri, eləcə də şüşə qablarda narkotik tərkibli bitkilərin toxumları aşkar olunub. Saxlanılan şəxslər çətənə kollarını bir müddət əvvəl becərdiklərini və qulluq göstərdiklərini etiraf ediblər. M.Məmmədov narkotik sifarişlərini qəbul etdikdən sonra arvadı, oğlu və gəlini vasitəsilə deyilən ünvanlara çatdırılmasını təmin edib. F

Faktla bağlı cinayət işi başlanılıb, məhkəmənin qərarı ilə üç nəfər barəsində həbs, D.Məmmədova barəsində isə digər növdən olan qətimkan tədbiri seçilib. Əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Narkokuryerlər tutuldu

## Qanunsuz dövriyyədə şübhəli bilinirlər

Zərdab Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində narkotiklərin qanunsuz dövriyyəsini təşkil edən Qoşaoba kənd sakini Ceyhun Əliyev saxlanılıb. Şirvan regional qrupumuzdan verilən məlumata görə, ondan 3 kiloqram 500 qram marixuana aşkarlanıb.

Şöbə əməkdaşları tərəfindən eyni istiqamətdə keçirilən digər bir əməliyyat zamanı rayon sakini Salik Abdullayev də saxlanılıb. Adıçəkilən şəxsdən də satış məqsədilə qablaşdırılmış marixuana götürülüb.

Faktlarla bağlı cinayət işləri başlanılıb, hər iki şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Quldurluq etmişdi...

## Ölkədən qaçdı, qanundan qaça bilmədi

Göyçay rayonunda yerləşən quşçuluq fermalarının birində quldurluq hadisəsi qeydə alınıb. Kamuflyaj olunaraq gecə saatlarında obyektə daxil olan naməlum şəxs orada işləyən qadına küt alətlə xəsarət yetirib və 23300 manatı, eləcə də 2200 manat dəyərindəki qızıl-zinət əşyalarını talayaraq ələ keçirib. Şəki regional qrupumuzdan bildirilib ki, Göyçay Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində əməli törədən şəxsin 40 yaşlı Ceyhun Əsgərov olduğu və hadisəni törətdikdən sonra onun Rusiya Federasiyasına qaçdığı müəyyən edilib. Həyata keçirilən tədbirlərlə C.Əsgərov saxlanılaraq istintaqa təhvil verilib.

Faktla bağlı başlanmış cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir. Məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib.

# Yol hipnozu: sürücülərin gizli təhlükəsi

## Sükan arxasında gizlənən ölüm yuxusu

**Yol hipnozu sürücünün gözləri açıq olsa da, beyninin gördüklərini təhlil edə bilmədiyi, transvari fiziki vəziyyətdir.**

Bu vəziyyət yola çıxdıqdan təxminən 2–2,5 saat sonra yaranır və ağır yol-nəqliyyat hadisələrinin əsas səbəblərindən biridir.



### Yol hipnozu nədir?

Yol hipnozu sürücünün vizual məlumatı qəbul etməsinə baxmayaraq onu şüurlu şəkildə dərk edib təhlil edə bilməməsidir. Sürücü "oyanıq" görünür, gözləri açıqdır, sükan arxasındadır, amma son 10-15 dəqiqəni xatırlamaya, qarşıda gedən nəqliyyat vasitəsinin sürətini və məsafəsini düzgün qiymətləndirməyə bilir.

### Əlamətləri

- Son 15 dəqiqəni xatırlamamaq;
- Yolda keçən hissələri "avtomatik" şəkildə sürmək;
- Məsafə və sürət barədə hesablama qabiliyyətinin zəifləməsi;
- Gözlərin açıq olmasına baxmayaraq diqqətin yoxluğu;
- Yorğunluq, diqqət yayınıqlığı və reaksiya sürətinin azalması.

### Niyə təhlükəlidir?

Yol hipnozu zamanı sürücü qəfil baş verən vəziyyətlərə vaxtında reaksiya verə bilmir - yol kənarında dayanan avtomobilə, ötən yük maşınına və ya öncəki manevrə diqqət yetirmir. Statistik müşahidələr göstərir ki, çox vaxt toqquşma sürücü 140 km və daha artıq məsafə sürəndən sonra baş verir, yeni sürücü yolları "keçmiş kimi" qəbul edir.

### Risk faktorları

- Uzunmüddətli fasiləsiz sürüş (2–2,5 saatdan artıq);
- Gecə saatları və zəif işıqlandırma;
- Sərnişinlərin yuxuya getməsi (sürücünü də yuxuya çəkə bilər);
- Monoton, uzun və düzən yollar;
- Əvvəlcədən yuxusuzluq və ya yorğunluq.

### Necə qorunmaq olar?

*(Təhlükəsizlik qaydaları)*

*1.* Hər 2-2,5 saatdan bir dayanın. 15-30 dəqiqə gəzinin, dərin nəfəs alın, çay və ya qəhvə için.

*2.* Qısa fasilələrdə aktiv olun. Dayananda 5-6 dəqiqə gəzmək, ayaq hərəkətləri və yüngül məşqlər beyninizi oyandırır.

*3.* Səfər öncəsi yuxunu təmin edin. Uzun marşrutdan əvvəl yaxşı istirahət vacibdir.

*4.* Yolda məntiqi "məqamlara" diqqət edin. Bəzi yerləri, körpüləri, nişanları yadda saxlayın. Bu, avtomatik sürməni pozmağa yardım edir.

*5.* Sərnişinlərlə əlaqədə olun. Gecə səfərində kimsə oyaq qalaraq sürücünü müşahidə edə bilər.

*6.* Əgər son 15 dəqiqəni xatırlamırsınızsa, dərhal dayanıb istirahət edin. Bu, sizin və sərnişinlərin həyatını qoruya bilər.

### Gecə sürücülüyü və əlavə tədbirlər

Gecələr sərnişinlər yuxuya getdikdə sürücünün diqqəti daha da zəifləyə bilər. Buna görə gecə marşrutlarında mütləq növbəli istirahət, mümkün olduqda digər sürücü ilə növbələşmə tövsiyə olunur.

### Nəticə

Yol hipnozu gözlə görünməyən, lakin ölümə aparan təhlükədir. Sadə, rutin fasilələr və ayıq qalma üsulları ilə bu təhlükəni əhəmiyyətli dərəcədə azalda bilərsiniz.

**Yol hipnozu sükan arxasında gizlənən ölüm yuxusudur. Yol hipnozu bir anlıq diqqətsizlik, ömürlük peşmanlıqdır.**

**Sükan arxasında hipnoz yuxunun ən təhlükəli formasıdır. Hipnoza düşən sürücü, qəzanın qaçılmaz yolçusudur. Yol hipnozu açıq gözlərlə qaranlığa getməkdir, açıq gözlərlə yuxu görməkdir. O sürücünü aldadır, qəza isə oyadır.**

**Ayıqlığını itirən sürücü, yol hipnozunun əsirinə çevrilir. Yol hipnozu görünməz an, amma ən böyük təhlükədir. Hipnoza düşən sürücü, öz taleyini sükanla birlikdə itirir.**

# Yarışdan qalib ayrıldılar

## Naxçıvanın komandası birinci oldu

Daxili işlər orqanlarının Post-Patrul Xidmətinin əməkdaşları arasında komanda çoxnövçülüyü üzrə region yarışlarına yekun vurulub.



Region yarışlarında qalib olan komandalar respublika çempionatına vəsiqə qazanıblar. Sentyabrın 15-16-da Bakıda keçirilən respublika çempionatında 16 komanda iştirak edib. Hər komanda 4 idmançı ilə təmsil olunub. Birinci mərhələdə onlar turnikdə gövdə üzərində qalxıb-aşma, ikinci mərhələdə turnikdə qollar üzərində gövdənin qaldırıb endirilməsi hərəkətini yerinə yetiriblər. Üçüncü mərhələdə isə idmançılar 1600 metr məsafəni müəyyən olunmuş vaxt çərçivəsində qət ediblər. Yarışın nəticələrinə görə birinci yerin qalibi Naxçıvan MR DİN-in komandası, ikinci yeri DİN NBPİ-nin, üçüncü yeri isə Gəncə ŞBPİ-nin komandası tutub.

Yarış maraqlı məqamlarla yadda qalıb. Belə ki, Gəncə ŞBPİ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis baş serjantı Şahin Məmmədov turnikdə gövdə üzərinə qalxma-aşma və turnikdə qollar üzərində gövdənin qaldırılıb-endirilməsi hərəkətini bütün yarış iştirakçılarından daha çox edərək fərqləndiyinə görə münsiflər tərəfindən yarışın xüsusi mükafatına layiq görülüb.

*"Polis"*

# Ən güclü oldular

## Ölkəmizi təmsil edəcəklər

Bir neçə gün öncə Abşeron Olimpiya İdman Kompleksində güc idman növləri üzrə ölkə kuboku baş tutub.





Yarışda stronqmen, striktkörl, benç-press, didlift, stritliftinq və armliftinq üzrə ölkənin ən güclü idmançıları birincilik uğrunda mübarizə aparıblar. Güc və dözümlülüyün nümayişi olan yarışda Daxili İşlər Nazirliyinin əməkdaşları da güclərini sınayıb. Gəncə ŞHBPİ-nin 1-ci Polis Şöbəsinin Post-Patrul Xidmətinin əməkdaşı, dəfələrlə dünya və Avropa çempionu, polis baş serjantı Əli Əliyev əzmkarlıq nümayiş etdirərək bu dəfə də uğura imza atıb. O, 110+ çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb.

DİN Komendant Xidmətinin əməkdaşı, polis serjantı Hikmət Balayev isə rekordunu növbəti uğuru ilə yeniləyib. Belə ki, idmançımızın çəkisi 88 kiloqram olsa da 90 kiloqramda verilən tapşırıqların öhdəsindən layiqincə gəlib. Bütün rəqiblərinə qalib gələn həmkarlarımız Dubayda keçirilən dünya çempionatına vəsiqə qazanıblar.

# Ustalıq nümayiş etdirdi

## Öz çəkisində çempion oldu

Daxili İşlər, Gənclər və İdman nazirliklərinin, o cümlədən Azərbaycan Cüdo Federasiyasının təşkilatçılığı ilə DİN İdman Cəmiyyətində veteran cüdoçular arasında yarış keçirilib.




Bu yarışda həmkarlarımız da güclərini sınayıblar. DİN idman Cəmiyyətinin Fiziki Hazırlıq Şöbəsinin baş inspektoru polis mayoru, Əməkdar idman ustası Elşən İbişov 90 kiloqram çəki dərəcəsində birinci yeri tutaraq çempion adını qazanıb.

Yeri gəlmişkən, yarışın əsas hakimlərindən biri A. Heydərov adına Kiçik və Sıravi Rəis Heyəti Hazırlayan Məktəbin müəllimi polis kapitanı Ayaz Abbasov olub.

# “Görünməz adam”

## Onun varlığını düşmən vurulanda hiss edirdi



Simo Hayha 1905 ci ildə dekabr ayında Finlandiyanın Rautjarvi kəndində, sadə bir kəndli ailəsində dünyaya göz açmışdı. Uşaqlıq illəri təbiətin qoynunda keçmişdi. Kənd həyatı ona həm fiziki möhkəmlik, həm də səbir aşılamışdı. Ovçuluqla maraqlanır, təkbaşına meşələrdə saatlarla vaxt keçirirdi. Kiçik yaşlarından silahı necə tutmağı, hədəfə necə düzgün nişan almağı öyrənmişdi. Bu bacarıqları onun gələcəkdə snayper kimi fərqlənməsinə zəmin yaratdı. Hərbi xidmətə çağırıldıqdan sonra da daim öz üzərində çalışır, atıcılıq texnikasını təkmilləşdirirdi. O, rəsmi idman yarışlarında dəfələrlə qalib olmuş, atıcılıq sahəsində adını tanıtmışdı.

1939-cu ilin noyabr ayında Sovet İttifaqı Finlandiyaya qarşı müharibəyə başladı.

### Səbr uğurun təməlidir

Bu münaqişə tarixə “Qış Müharibəsi” kimi düşdü. Finlandiya əsgərləri çətin və sərt iqlim şəraitində mübarizə aparırdılar. Temperatur bəzi günlərdə −40 dərəcəyə qədər enirdi, qarla örtülmüş meşələr və dar keçidlər döyüşü daha da çətinləşdirirdi. Məhz belə bir şəraitdə Simo Hayha, sadəcə bacarığına və soyuqqanlı düşüncəsinə arxalanaraq, snayper mövqeyində döyüşə qatıldı. O, ağ kamuflyaj geyərək qarın içində demək olar ki, görünməz olurdu. Əksər snayperlərdən fərqli olaraq optik nişangahdan istifadə etmirdi. Bunun əvəzinə, tüfəngin adi dəmir nişangahını seçmişdi, çünki optika soyuqda buxarlanaraq onun yerini ifşa edə bilərdi.

### Qarlar içində böyüyən əfsanə

Qısa müddət ərzində Simo Hayha inanılmaz dəqiqliklə atəş açaraq düşmən tərəfdən yüzlərlə əsgəri zərərsizləşdirdi. Rəsmi hesablara görə, o, 500-dən çox düşmən əsgərini vurmuşdu. Bəzi mənbələr bu sayın 700-ü keçdiyini iddia edir. Bu, tarixdə ən yüksək snayper göstəricilərindən biri hesab olunur. Simonun bir gün ərzində 20 dən çox əsgəri vurduğu günlər də olub. Hər gün saatlarla tərpənmədən qar altında gizlənərək, tam səbir və soyuqqanlılıqla hədəfləri izləyib, güllələrini heç bir tərəddüdsüz dəqiqliklə atıb. Onun fəaliyyəti Sovet ordusunda qorxu yaratmışdı. Hətta sovet əsgərləri arasında “Ağ Ölüm” adlandırılırdı.

### Güllələrə qalib gələn döyüşçü

Müharibənin sonuna bir neçə gün qalmış, 1940-cı ilin mart ayında Simo ağır yaralanır. Sovet əsgərlərindən birinin atdığı partlayıcı güllə onun üzünə dəyir və çənəsini yaralayır. Onu ilk görənlər öldüyünü zənn etsə də, həkimlərin müdaxiləsi nəticəsində həyatda qalır. Uzun müddət müalicə alır, sifətindəki çapıqlar ömürlük iz olaraq qalır. Müharibədən sonra ona “ikinci leytenant” rütbəsi verilir və qəhrəman kimi evinə dönür. Lakin o, şöhrət arxasınca qaçmır, təvazökar həyat tərzini davam etdirir. Ovçuluqla məşğul olur, kənd həyatına qayıdır və sükunət içində yaşamağa üstünlük verir.

### Tarixə düşən qəhrəman

Simo Hayhanın qəhrəmanlığı bu gün də tarix kitablarında, hərbi təlimlərdə örnək kimi göstərilir. Onun uğurunun sirri təkcə güllənin dəqiqliyində deyildi, o, səbirlə gözləməyi, mühitə uyğunlaşmağı və təhlükə qarşısında soyuqqanlı qalmağı bacarırdı. Bütün bu bacarıqları onu sadə bir kənd oğlundan dövrünün ən qorxulu snayperinə çevirdi. O, ölüm saçan bir silah daşısa da, heç vaxt qəddarlıq nümayiş etdirməyib. Hər zaman vətəninə xidmət etməyi və borcunu yerinə yetirməyi qarşısına məqsəd qoymuşdu.

Simo Hayha sübut etdi ki, qəhrəman olmaq üçün nə çox danışmağa, nə də göstərişli olmağa ehtiyac var. Bəzən bir insanın səssiz mövqeyi, sadəcə düzgün yerdə dayanması, tarix yazmağa kifayət edir.

*Aytən Tahirova*
*polis kapitanı*

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik